

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 205 (21.615)

29 oktyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ordubad rayonunun Baş Dizə kəndində məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib

Muxtar respublikada müasir kənd infrastrukturu yaradılır, ən ucqar dağ və sərhəd kəndlərində də geniş abadlıq-quruculuq işləri aparılır. Kəndlərdə müasir tədris imkanları olan məktəb binalarının və sosial obyektlərin istifadəyə verilməsi, dayanıqlı elektrik enerjisi və təbii qaz təminatı, rabitə xidmətinin göstərilməsi və sürətli internetə çıxış imkanlarının yaradılması insanların rahat yaşayışının təmin olunmasına imkan verib.

Müstəqilliyimizin bəhrəsi olan bu tədbirlər son illər Ordubad rayonunda da uğurla həyata keçirilmiş, kəndlər müasir görkəm almışdır.

## Baş Dizə kənd tam orta məktəbi üçün yeni bina tikilib





Oktyabrın 28-də Baş Dizə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Baş Dizə kənd tam orta məktəbinin direktoru Şükür Həsənov çıxış edərək demişdir ki, Ordubad rayon Baş Dizə kəndində geniş quruculuq işlərinin aparılması kəndi müasir yaşayış məntəqəsinə çevirib. Kəndimizdə hər cür şəraitə malik müasirtipli məktəb binası inşa olunmuşdur. Artıq kənd sakinlərinin bütün çətinliklərinə son qoyulub. Şagirdlər müasir təhsil şəraitinə malik məktəbdə elmin sirlərinə yiyələnəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsinin Baş Dizə kəndinin həyatında əlamətdar hadisə olduğunu bildirmiş, bu münasibətlə sakinləri və kollektivi təbrik edərək demişdir: Oktyabrın 18-də ölkəmizdə dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü qeyd olundu. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Dövlət müstəqilliyini qorumaq onu əldə etməkdən qat-qat çətindir"***. Ötən dövrdə ölkəmizdə həyata keçirilən tədbirlər, ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində müstəqilliyimiz daha da möhkəmlənmiş, Azərbaycan inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur.

Ali Məclisin Sədri demişdir: Hər bir ölkənin gələcəyi məktəbdə hazırlanır. Ulu öndərimiz deyirdi ki, ***"Təhsil alan hər bir gənc ölkəmizin gələcəyidir"***. Bu səbəbdən də ölkəmizdə təhsilin inkişafına, məktəb tikintisinə xüsusi diqqət yetirilir, müasir tədris şəraiti yaradılır. Həyata keçirilən tədbirlər imkan verir ki, ölkəmizin bütün bölgələrində gənclər hərtərəfli təhsil alsın, vətənpərvər böyüsün, özlərini müstəqil Azərbaycanın gələcəyinə hazırlasınlar. Baş Dizə kənd tam




orta məktəbi də müasir tədrisin tələbləri səviyyəsində qurulmuşdur. Hər bir peşə sahəsinin öz tələbi vardır. İnşaatçılar üzərlərinə düşən vəzifələri yerinə yetirmiş, məktəb binasında tikinti işləri keyfiyyətlə aparılmışdır. Yaradılan şəraitdən səmərəli istifadə edərək şagirdlərə hərtərəfli təhsil vermək, vətənpərvər və dünyagörüşlü gənclər böyütmək, ölkəmizin gələcəyini hazırlamaq isə məktəb kollektivinin qarşısında duran vəzifədir.

Ali Məclisin Sədri məktəb binasının tikintisində əməyi olanlara təşəkkür edərək demişdir: Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və ölkəmizin daha da inkişafı üçün gənclərin hazırlanmasına xüsusi diqqət yetirməliyik. Hər bir gəncə təhsil verməklə yanaşı, həm də peşə öyrədilməlidir. Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında gənclərin peşə, orta, orta ixtisas və ali təhsil alması üçün hər cür şərait yaradılmışdır. Bundan başqa, təhsildə fərqlənən gənclər xarici ölkələrdə ali təhsil almağa göndərilir. Ona görə də məktəbin kollektivi müasir tədris avadanlıqlarından istifadə edərək qarşıya qoyulan vəzifələri yerinə yetirməli, məktəbdə tədrisin səviyyəsi yüksəldilməlidir.

Ali Məclisin Sədri məktəbin nailiyyətlərinin daha da artırılacağına və təhsil ocağının muxtar respublikanın qabaqcıl məktəbləri sırasına qoşulacağına əminliyini bildirmiş, bir daha kollektivi təbrik etmişdir.

Məlumat verilmişdir ki, 156 şagird yerlik 3 mərtəbəli məktəbdə 3-ü elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Məktəbdə 13 kompüter quraşdırılmış və internetə qoşulmuş, kitabxana fondunda 3 mindən çox kitab şagirdlərin istifadəsinə verilmişdir.

Baxış zamanı Ali Məclisin Sədri kitabxanalardan istifadənin tədris prosesindəki əhəmiyyətini qeyd etmiş, kitabxana işinin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

Hərbi kabinədə lazımı şərait yaradılmışdır. Geniş və işıqlı idman zalı isə fiziki tərbiyə dərslərinin tədris proqramına uyğun keçirilməsinə və şagirdlərin fiziki hazırlıqlarının artırılmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri kimya-biologiya və fizika laboratoriyalarında olmuş, bu fənləri tədris edən müəllimlərin təkmilləşdirilmə kurslarında iştirakının vacibliyini bildirmişdir.

Elektron lövhəli sinifdə Naxçıvan Dövlət Tarix Muzeyi ilə əlaqə yaradılaraq 209 təhsil müəssisəsinin iştirakı ilə distant dərs keçirilmişdir.

Ali Məclisin Sədri müəllimlərlə görüşmüş, onları təbrik edərək demişdir: Gənclər ölkəmizin gələcək inkişafının təminatçılarıdır. Ona görə də gənclərə peşə öyrədilməsi, vətənpərvər yetişdirilməsi qarşıda duran əsas vəzifədir. Məktəbdə şagirdlərin fərdi hazırlığına diqqət yetirilməli, hər bir şagird yaxşı təhsil almaqla yanaşı, həm də gələcəkdə peşə sahibi olmalıdır. Çünki bu gün peşə öyrənən və vətənpərvər böyüyən hər bir gənc gələcəkdə dövləti üçün yararlı vətəndaş olacaqdır.

Gənc müəllim Aliyə Əliyeva minnətdarlıq edərək demişdir: Ölkəmizdə ümummilli liderimizin siyasi xəttinin uğurla davam etdirilməsi digər sahələrlə yanaşı, təhsilin inkişafına da səbəb olmuşdur. Bu gün muxtar respublikada gənc müəllimlərin fəaliyyəti üçün lazımi şərait vardır. Mən Culfa rayonunun Bənəniyar kənd sakiniyəm. Keçirilən təhsil yarmarkasında Baş Dizə kənd tam orta məktəbinə təyinat almışam. Məktəbdə ingilis dili fənnini tədris edirəm. Dövlətimiz tərəfindən fəaliyyətim üçün bütün şərait yaradılıb. Müasir məktəb binasının istifadəyə verilməsi də bu qayğının daha bir ifadəsidir.

Pedaqoji kollektiv bundan sonra da Ali Məclis Sədrinin ***"Məktəb bizim evimizdir"*** fikirlərini əsas götürərək tədrisin səviyyəsini yüksəldəcək, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəkdir.

## Baş Dizə Kənd Mərkəzi istifadəyə verilib

Oktyabrın 28-də Baş Dizədə kənd mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada dövlət qurumları üçün yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, mərkəzdə rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün otaqlar, 40 yerlik iclas zalı yerləşir.

Kənd mərkəzində baytarlıq məntəqəsinin fəaliyyəti üçün lazımi şərait yaradılmış, dərman preparatları qoyulmuşdur. Baytarlıq məntəqəsi kənddə yoluxucu xəstəliklərin yayılmaması üçün planlı şəkildə epizootiya əleyhinə profilaktiki tədbirlərin aparılmasında, heyvandarlıq məhsullarının keyfiyyətinə nəzarətin həyata keçirilməsində mühüm rol oynayacaqdır.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Xəlil Fərəcov demişdir ki, Baş Dizə kəndində insanların əsas məşğuliyyət sahəsi bağçılıq, heyvandarlıq və arıçılıqdır. Kənd sakinləri güzəştli şərtlərlə kreditlər götürərək öz təsərrüfatlarını genişləndirirlər. Son illər götürülən kreditlər hesabına kənddə 20 hektardan artıq meyvə bağı salınmış, iri və xırdabuynuzlu heyvanların, arı ailələrinin sayı artırılmışdır.

Kitabxana fondunda 7655 kitab vardır. Onlardan 1727 ədədi latın, 5928 ədədi isə kiril əlifbası ilə çap olunmuş ədəbiyyatlardır. Hazırda kitabxanada 102 oxucu qeydiyyatdadır.

Rabitə xidmətinin yaxşılaşdırılması istiqamətində Baş Dizə kəndində mühüm tədbirlər görülmüş, mərkəzdə yerləşən

Ardı 2-ci səhifədə






rabitə evində poçt bölməsi yaradılmış, elektron avtomat telefon stansiyası quraşdırılmışdır. Kəndə fiber-optik xətt çəkilmiş, sürətli internetə çıxış imkanı yaradılmışdır.

Yeni Azərbaycan Partiyası Baş Dizə kənd ərazi ilk təşkilatının sədri Tural Tağıyev demişdir ki, kənddə 117 partiya üzvü vardır. Onlardan 55-i qadınlar, 43-ü isə gənclərdir. Partiya üzvləri kəndin abadlaşmasında bundan sonra da səylərini artıracaqlar.

## Xidmət mərkəzində lazımi şərait yaradılıb






Oktyabrın 28-də Baş Dizə kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, xidmət sahələrində yaradılan şəraitlə tanış olmuşdur.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, dərzi, ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza fəaliyyət göstərir. Mağazada yerli istehsala üstünlük verilir, kənddə yetişdirilən meyvələrin və hazırlanan müxtəlif ərzaq məhsullarının satışı həyata keçirilir. Mərkəzdə 6 nəfər işlə təmin olunub. Bildirilmişdir ki, xidmət mərkəzində yeni işlə təmin olunan bərbər, qadın saç ustası və dərzi Ordubad Texniki Peşə və Sürücülük Məktəbində təhsil alaraq müvafiq peşələrə yiyələnmişlər.

Mərkəzlə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri Baş Dizə kəndinin abad yaşayış məntəqələri sırasına daxil olduğunu bildirərək demişdir: Kənddə aparılan quruculuq işləri sakinlərin rahatlığına xidmət edir. Baş Dizə kəndində sosial problemlər həll olunub. İnsanların ölkəmizdə həyata keçirilən siyasi xəttə sədaqət göstərməsi, xalq-dövlət birliyi inkişafın əsas səbəbidir. Ona görə də sakinlər yaradılan şəraitdən səmərəli istifadə etməli, təsərrüfatlar genişləndirilməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, kənd daha da abadlaşdırılmalıdır.

Kənd ağsaqqalı Heydər Fərəcov sakinlər adından minnətdarlıq edərək demişdir: Bu gün muxtar respublikanın digər yaşayış məntəqələri kimi, Ordubad rayonunda da geniş quruculuq işləri aparılır. Sakinlərin rifahı yüksəlmişdir. Baş Dizə kəndində aparılan quruculuq işləri onun simasını dəyişmişdir. Kənd müasirləşmiş, şəhər görkəmi almışdır. Yüksək rifah və sabitlik şəraitində yaşayırıq. Ölkəmizin inkişafını ən ucqar dağ kəndinin sakinləri də öz həyatlarında hiss edirlər. Bütün bu işlərlə, müstəqil dövlətimizlə qürur duyuruq. Ona görə də yaradılan abadlığı, əldə olunan inkişafı daim qoruyacaq, təsərrüfatlarımızı genişləndirəcək, ölkəmizin inkişafında pay sahibi olacağıq.

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayev rayonda həyata keçirilən quruculuq işlərinə görə sakinlər və partiya üzvləri adından minnətdarlıq etmişdir.

* * *

Baş Dizə kəndində aparılan quruculuq işləri zamanı kənddaxili avtomobil yolları da yenidən qurulmuş, 2100 metr yola asfalt örtük salınmış, 55 su keçidi qoyulmuş, 561 metr beton kanal çəkilmişdir. Yolun üzərindəki körpü təmir edilmiş, istinad divarı tikilmişdir. Kənddə rabitə, elektrik və qaz xətləri də yenilənmiş, 620 metr fiber-optik kabel, 1135 metr müxtəlif tutumlu rabitə xətti, 600 metr elektrik xətti çəkilmiş, 6 kilometr müxtəlif diametrli qaz xətlərində təmir bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı qeyd olunmuşdur





Oktyabrın 28-də Türkiyə Cümhuriyyətinin yaradılmasının 93-cü ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilmişdir.

Sonra Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik oxunmuşdur.

Türkiyənin Naxçıvandakı Baş konsulunun birinci müavini Əhmət Özkan çıxış edərək türk xalqının istiqlal mübarizəsindən, Türkiyə Respublikasının bugünkü inkişaf və tərəqqisindən danışmışdır. Qeyd olunmuşdur ki, Türkiyə və Azərbaycan xalqları hər zaman bir-birinin yanında olmuşlar. Əhmət Özkan Türkiyənin dost və qardaş Azərbaycanla əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının rolundan danışmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Dövlət müstəqilliyi hər bir xalqın malik olduğu ən dəyərli sərvətdir. Türk xalqı 93 il bundan əvvəl dövlət müstəqilliyini elan etmişdir. Ali Məclisin Sədri qardaş Türkiyənin müstəqillik bayramı, Cümhuriyyət elan edilməsi münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik etmiş, inkişaf və tərəqqi arzulamışdır.

Qeyd olunmuşdur ki, bir-birlərinin dövlət müstəqilliyini dəstəkləyən və həmrəylik göstərən ölkələrimiz arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Ölkələrimiz və xalqlarımız arasında möhkəm tərəfdaşlığa Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin bölgələri arasındakı əməkdaşlıq da öz töhfəsini verməkdədir. Bizim aramızda iqtisadi-ticarət, elm, təhsil, mədəniyyət, nəqliyyat və digər sahələrdə əlaqələr davamlı xarakterə malikdir və hər il genişlənir.

Ali Məclisin Sədri əlaqələrin bundan sonra da dərinləşəcəyinə əminliyini ifadə etmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Türkiyə və Azərbaycanın birliyi bizim milli sərvətimizdir. Biz bu birliyi qoruyuruq və bundan sonra da qoruyacağıq".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*29 oktyabr Türkiyə Respublikasının Cümhuriyyət bayramıdır*

# Azərbaycan-Türkiyə əlaqələri ortaq dəyərlər üzərində qurulub



*Türkiyə Cümhuriyyəti 93 il bundan əvvəl – 1923-cü ildə yaranmışdır.*

XX əsrin əvvəllərində Osmanlı imperiyası süqut ərəfəsində idi. Belə bir dövrdə imperiyanın Birinci Dünya müharibəsinə qoşulması onun Antanta dövlətləri tərəfindən məğlubiyyətə uğradılması ilə nəticələndi. Bu məğlubiyyətin nəticəsi olaraq 1918-ci ildə qalib dövlətlərlə Türkiyə arasında Mudros müqaviləsi bağlandı. Bu müqavilə Türkiyəni parçalamaq və onun tarix səhnəsindəki roluna son qoymaq məqsədi daşıyırdı.

Müqavilənin imzalandığı dövrdə Türkiyənin nəzarətindəki ərazilərin bir qismi Antanta tərəfindən tutulmuşdu. İngilis orduları Mosul vilayətini, Antepi, Maraşı, Urfanı, Əskişəhəri işğal etmişdilər. Onlar Anadolu-Bağdad dəmir yoluna, Qara dəniz və Aralıq dənizi limanlarına da nəzarət edirdilər. Fransızlar isə Adana vilayətini ələ keçirmişdilər. İtalyanlar Antalya və Quşadasına daxil olmuş, Konyanı, İspartanı, Bodrumu və Anadolunun digər cənub-qərb rayonlarını işğal etmişdilər. Artıq 1919-cu ilin əvvəllərində Türkiyədə Antanta dövlətlərinə məxsus əsgərlərin sayı 100 min nəfərdən çox idi.

Türkiyəni parçalamaq siyasətinin kökündə dayanan amillərdən biri də burada erməni dövləti yaratmaq idi. Fəallığı artan ermənilər təxribatçı fəaliyyət göstərir, Türkiyənin məhvinə çalışırdılar. Həm daxildəki düşmənlərin ölkəni parçalamaq cəhdləri, həm də 1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr sazişi Türkiyənin dövlətçiliyini və gələcəyini təhlükə altında qoymuşdu. Türk xalqı ədalətsizliklə barışmayaraq 1919-cu ildə ölkədə milli azadlıq mübarizəsinə başladı. Mübarizəyə Birinci Dünya müharibəsi döyüşlərində bir sıra hərbi əməliyyatlarda uğur qazanmış general Mustafa Kamal rəhbərlik edirdi. Onun rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Qələbənin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermiş, türk xalqına qardaşlıq köməyini əsirgəməmişdir.

1923-cü il oktyabrın 29-da müstəqil Türkiyə Respublikasının yaradılması bütün dünyaya bəyan edildi. Atatürkün qurduğu Türkiyə Respublikası onun yolu ilə gedərək bu gün bölgədə və dünyada inkişaf etmiş dövlətə çevrilib. Güclü iqtisadiyyatı, qüdrətli ordusu ilə Türkiyə Respublikası hazırda beynəlxalq aləmdə öz mövqeyi olan ölkələrdən biridir.

Türkiyə və Azərbaycan xalqları daim bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki dövlətin qurucusunun – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Azərbaycanla Türkiyənin strateji tərəfdaşlığı hər iki xalqın eyni kökə mənsub olmasından qaynaqlanır. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanla Türkiyə arasında əlaqələrə daim üstünlük vermiş, bu əlaqələri ***"bir millətin iki dövləti"*** səviyyəsinə qaldırmışdır.

Əsası ulu öndərimiz tərəfindən qoyulan Türkiyə ilə dostluq və qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkələrimiz regionda və beynəlxalq aləmdə baş verən bütün hadisə və proseslərə münasibətdə eyni mövqedən çıxış edirlər. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük layihələr Azərbaycan və Türkiyənin dünyada söz sahibi olmasına imkan yaradıb. İki qardaş ölkə arasındakı münasibətlərin inkişafında qarşılıqlı səfərlər mühüm əhəmiyyət kəsb edir. Həmin səfərlər zamanı yüzlərlə dövlətlərarası və hökumətlərarası sənəd imzalanmışdır ki, bu da bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi üçün hüquqi baza rolunu oynayır.



Qarşılıqlı səfərlər ölkələrimiz arasında strateji dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu inkişafı, əlaqələrin bütün sahələrdə daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Son dövrlər ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında müqavilənin imzalanması və birgə hərbi təlimlərin keçirilməsi, eləcə də Türkiyənin "G 20"-nin zirvə toplantısına Azərbaycanı dəvət etməsi hər iki ölkənin tarixi əlaqələrinin davamı kimi mühüm əhəmiyyətə malikdir.

Qardaş Türkiyə ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki ədalətli mövqeyini müdafiə edir, Azərbaycan da, öz növbəsində, Türkiyənin üzləşdiyi problemlərin həllində dəstəyini əsirgəmir. Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür".***

Azərbaycan-Türkiyə əlaqələrinin dinamikası Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapır. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermişdir. Bundan başqa, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İqdır-Naxçıvan yüksək gərginlikli elektrik xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri zamanı Türkiyə Respublikasının Prezidenti, Baş naziri, xarici işlər naziri və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşlər keçirmişdir. Bu görüşlərin nəticəsi olaraq 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında nəqliyyat sahəsindəki əlaqələr də inkişaf edirilir, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysi fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanla Türkiyənin əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***"Azərbaycan-Türkiyə əlaqələrinin qədim tarixi vardır. Xalqlarımız tarixin ən çətin məqamlarında bir-birinə dəstək olmuş, soykök, milli və ortaq dəyərlər qardaş ölkələr arasındakı əlaqələrin əsasını təşkil etmişdir. Milli liderlərimiz – Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən "bir millətin iki dövləti" səviyyəsinə yüksəldilən əlaqələrimiz bu gün ölkələrimizin strateji tərəfdaşlığı şəraitində davam etdirilir".***

2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında iştirak üçün Naxçıvana gəlməsi, 2012-ci ildə Türkiyə Respublikası xarici işlər nazirinin Naxçıvanda keçirilən Azərbaycan, Türkiyə və İranın xarici işlər nazirlərinin üçtərəfli görüşündə iştirak etməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir.

***Azərbaycanla Türkiyə arasındakı münasibətlər öz kökünü xalqlarımızın qədim tarixindən götürür. Bu prinsipə əsaslanan ikitərəfli əlaqələrimiz ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq daha da inkişaf etdiriləcək, strateji tərəfdaşlığımız möhkəmlənəcəkdir.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Sərbəst güləş üzrə muxtar respublika birinciliyinin açılış mərasimi keçirilmişdir

*Oktyabrın 28-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyinin açılış mərasimi olmuşdur.*





Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov açılış mərasimində çıxış edərək demişdir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, idmana dövlət qayğısı artmış, onun maddi-texniki bazası daha da möhkəmləndirilmiş, müstəqil Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmışdır. Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Naxçıvanda olimpiya-idman komplekslərinin, idman məktəblərinin, stadionların, muxtar respublikanın bütün məktəblərində idman zallarının tikilməsi gənclərin idmana marağını artırmış, istedadlı idmançıların yetişməsini təmin etmişdir. Müasir idman infrastrukturunun, istedadlı idmançıların olması muxtar respublikada beynəlxalq turnirlərin, mötəbər idman yarışlarının keçirilməsinə əlverişli şərait yaratmışdır. Bütün bunlar həm də muxtar respublika idmançılarının müxtəlif yarışlarda, beynəlxalq turnirlərdə uğurla çıxış etməsinə imkan vermişdir.

Bu sahədə yaradılmış güclü maddi-texniki bazanın idmana göstərilən dövlət qayğısının nəticəsi olduğunu bildirən Azər Zeynalov Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş sərbəst güləş üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyini açıq elan etmişdir.

Sonra yarışlara start verilmişdir.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi və iki gün davam edəcək birincilikdə 60-dan çox güləşçi iştirak edir. İdmançılar 57, 61, 65, 70, 74, 86, 97 və 125 kiloqram çəki dərəcələrində birincilik uğrunda mübarizə aparırlar. Yarışın ilk günündə finalçıların adları məlum olmuşdur. Belə ki, 57 kiloqram çəki dərəcəsində Vəhdəd Əsədov, Murad Quliyev, 61 kiloqram çəki dərəcəsində Emin Məmmədov, Sadiq Səfərov, 65 kiloqram çəki dərəcəsində Uzal Hüseynov, Hüseyn Hacıyev, 70 kiloqram çəki dərəcəsində Oruc Bayramov, Məhərrəm Quliyev, 74 kiloqram çəki dərəcəsində Yasin Quliyev, Məzahir İsmayılov, 86 kiloqram çəki dərəcəsində Əli Muradov, Salam Qəribov, 97 kiloqram çəki dərəcəsində Röyal Nəcəfov, Elməddin Abdullayev, 125 kiloqram çəki dərəcəsində isə Bahadur Əhmədov və Salamullah İbrahimov həlledici görüşdə iştirak etmək hüququ qazanmışlar.

Güləşçilər Cəmşid Naxçıvanskinin ev-muzeyini də ziyarət etmişlər.

**"Şərq qapısı"**

## Zəngilanın işğalından 23 il ötür

***Uca çinar ağaclarının arası ilə bir yol gedir o yurda. Çiynində mis səhəng olan bir nənə bulaqdan su aparır öz ocağına. Bəlkə də, düşünür ki, yanan ocağı düşmənə qoymaq olmaz. Çatdığın ocaq düşməni isidirsə, bu, vətənə xəyanətdir. Ya da bir az sonra düşmənin əlində alov-alov yanacaq Zəngilanı düşünərək götürüb bu suyu.***

Bu görüntüləri Zəngilanın işğaldan bir neçə gün öncə çəkilmiş videokadrlarından izləyirəm. Və o videokadrların çəkilməsindən indi düz 23 il ötür. Bu dəfə "Zəngilanın işğalından 23 il ötür" cümləsini yazmaq istəmirəm. Çünki insan psixologiyasında dəfələrlə eşitdiyin sözlərə vərdiş etmək kimi pis bir xüsusiyyət var. Yəni eyni bir cümləni birinci dəfə eşitdiyində verdiyin reaksiya ilə sonuncu dəfə verdiyin reaksiya eyni olmur. Bu cümlə adiləşməsin deyə, mən bu dəfə bircə cümləni bir abzasda ifadə etmək məcburiyyətindəyəm.

***Zəngəzurun son qalası – Zəngilan***

Bəli, yenə tanış faktları sadalamalıyam. Yazmalıyam ki, Zəngilanda dünyada II, Avropada I olan nadir çinar meşəsi, 1974-cü ildə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğu qalıb, 2 toxuculuq kombinatı, 1 çınqıl, 2 asfalt zavodu, mərmər, əhəng istehsalı sahələri, 200 çarpayılıq xəstəxana və şəhər poliklinikası, eləcə də iki 50 və iki 25 çarpayılıq kənd xəstəxanası, 46 feldşer-mama məntəqəsi, 5 kənd həkim ambulatoriyası, 125 çarpayılıq Mincivan Dəmiryol Xəstəxanası, 66 məktəb, 300 nəfər kontingenti olan texniki-peşə məktəbi, eləcə də qiyabi orta məktəb, 28 uşaq bağçası, 50 kitabxana, 9 mədəniyyət evi, 39 klub, 7 səyyari avtoklub, 21 kinoqurğu, 3 tarix-diyarşünaslıq muzeyi, 4 musiqi məktəbi erməni vandalları tərəfindən dağıdılıb. Düşmən bizim izlərimizi silmək üçün meşələrimizi qırıb, evlərimizi yandırıb, xəstəxanalarımızın dəmir çarpayılarını metal, binaların üzərindəki örtükləri tikinti materialı kimi satıb. Və daha bir həqiqət var. Düşmən Zəngilanı heç də yuxarıda sadaladıqlarımızdan ötrü işğal etməyib. Zəngilana Qarabağın son qalası deyirlər. Amma Zəngilan Qarabağ deyil. Zəngilan hələ XX əsrin 20-ci illərində tarixin ədalətsiz şərtləri altında Ermənistana verilmiş Zəngəzurun bir parçasıdır. Zəngilanın işğalı Zəngəzurun işğalını başa çatdırmaq üçün lazım idi. Zəngəzurun taleyi isə tarixi-coğrafi bütünlüyü ilə tarixin əksər dövrlərində Naxçıvana bağlı olub. Heç də təsadüfi deyil ki, Zəngilan toponiminin izah variantlarından biri də bizi Naxçıvana gətirib çıxarır.

***Zəngilan həm də yeni Kiran deməkdirmi?***

Zəngilanın oğuz-türk boylarından biri olan və tarixdə böyük dövlətlər yaratmış "Zəngi" tayfaları ilə əlaqəli olması fikri ədəbiyyatlarda daha çox yer alsa da, bu toponimin digər bir inandırıcı izahı da var. Bu barədə son illər Zəngilan rayonu haqqında yazılmış ən dəyərli toplulardan biri olan "Zəngəzurun zəngilanlı ziyalıları" kitabında yazılır. Kitabda qeyd edilir ki, yerli ağsaqqallardan bəzilərinin fikrincə, rayonun adı orta əsrlərin sonlarında dağıdılmış Gilan şəhərindən köçənlərlə əlaqəlidir. Müəllif yazır ki, deyilənə görə, oradan bir tayfa indi Zəngilan adlandırılan əraziyə gələrək məskunlaşıb. Onlar bir-birinə "sən gilanlı?" – deyə müraciət ediblər. Bu söz sonradan dəyişikliyə məruz qalıb, S hərfi Z hərfi ilə əvəzlənib və Zəngilan sözünün formalaşmasına səbəb olub. Başqa bir ehtimala görə isə "zən" sözü Şərq dillərindən birində "yeni, təzə" deməkdir. Buradan da "yeni Gilan" ifadəsi yaranır.

Tarixi tədqiqatlar sübut edir ki, orta əsrlərdə dağıdılmış Gilan və yaxud Kiran şəhəri məhz Naxçıvan ərazisindədir, bu şəhərin qalıqları Ordubadda Xaraba Gilan adlanan yerdə qalmaqdadır. Axı demişdik ki, Zəngəzurun və Zəngilanın taleyi tarixən Naxçıvanla bağlı olub. Elə zəngilanlıların növbəti soyqırımdan qurtarılması da Naxçıvandan bütün Azərbaycan üzərinə Günəş kimi parlayan dahi Şəxsiyyətin – Heydər Əliyevin adı ilə bağlıdır.

***Zəngilanı qurtarmaq üçün qurtarılan zəngilanlılar***

Zəngilanın işğal səbəbi düşmənin gücü deyildi. Yaddaşım məni yanıltmırsa, hələ XX əsrin 90-cı illərinin əvvəllərində ermənilər silahla Zəngilana hücumlar etməyə çalışanda zəngilanlılar əllərində olan yaba, dəryaz və digər kənd təsərrüfatı alətləri ilə Qafana qədər gedib çıxmışdılar. Bunu o zaman Zəngilanda yaşayan insanlar onsuz da bilirlər. Sonradan isə ozamankı AXC-Müsavat iqtidarının yarıtmaz əməlləri, ayrı-ayrı qruplara məxsus pərakəndə silahlı dəstələrin xəyanətkar hərəkətləri nəticəsində Zəngilan və zəngilanlılar blokadada vəziyyətinə salınmışdılar.

Məhz Azərbaycanın düşdüyü ağır vəziyyətdə yenidən Azərbaycan üzərində bir Günəş kimi parlayan dahi şəxsiyyət Heydər Əliyev blokadada qalmış zəngilanlıları Xocalı soyqırımına bənzər ikinci bir soyqırımdan qurtardı. Şahidlərin dediklərindən məlum olur ki, burada təsvir edilməsi mümkün olmayan faciəvi bir vəziyyət yaranmışdı: üç tərəfdə qana susayan düşmən, qarşıda isə bol sulu Araz çayı. Əhalinin düşmənin qanlı caynaqlarından xilas olmağa ümidinin tükəndiyi bir vaxtda yenə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev insanların köməyinə çatıb. Ulu öndərin tapşırığına əsasən, Araz çayı üzərində qurulmuş su bəndi bağlanıb və beləliklə, çayın suyu azaldığına görə əhali maneəsiz bir şəkildə İran İslam Respublikasının ərazisinə keçə bilib. Həmin vaxt insanlara ümid verən yaşlıların sözləri də öz təsdiqini tapıb. Onlar deyirmişlər: "Qorxmayın, Allah kərimdir, Heydər Əliyev heç vaxt öz xalqını darda qoymaz. Nəsə bir çıxış yolu tapacaq". Böyük xilaskar bu dəfə də xalqının köməyinə çatıb, 35 minə yaxın əhalini xilas edib, dəhşətli bir soyqırımının qarşısını alıb.

Ulu öndər zəngilanlıları qurtardı. Azərbaycanın və Azərbaycan Ordusunun qüdrətinin zirvəsinə yüksəldiyi bu günlər üçün. Zəngilanlılar qırğından, blokadadan qurtarıldı ki, bir gün Zəngilan da qurtarılsın.

Bəli, ötən illər ərzində Azərbaycan xeyli inkişaf edərək öz iqtisadiyyatını, ordusunun gücünü daha da artırıb. Bu gün xalqımız işğal altında qalan torpaqlarımızın geri qaytarılacağına tam əmindir və o günü səbirsizliklə gözləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, Azərbaycanda yaradılmış qüdrətli ordu bu inamı daha da artırır. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, biz heç vaxt öz ərazi bütövlüyümüzün pozulması faktı ilə barışmayacağıq və istənilən yolla torpaqlarımızı işğaldan azad edəcəyik. İndi keçən hər gün bizi torpaqlarımızın azad olunacağı günə – Böyük Qələbəyə daha da yaxınlaşdırır.

**Elnur KƏLBİZADƏ**

## Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin gündəlik iş saatı artırılıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu il İranın Qərbi Azərbaycan vilayətinə səfəri zamanı əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin gündəlik iş saatı 10 saatdan 12 saata çatdırılıb. Oktyabr ayının 29-dan bu gömrük orqanları Bakı vaxtı ilə səhər saat $8^{30}$-dan axşam saat $20^{30}$-dək fəaliyyət göstərəcək.***

Bu barədə "Şərq qapısı" qəzetinə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən bildirilib.

Məlumatda deyilir ki, iş vaxtının uzadılması vətəndaşların bu sərhəd-keçid məntəqəsindən istifadəsinin daha da yaxşılaşmasına, xarici ticarət dövriyyəsinin artmasına şərait yaradacaq.

Beynəlxalq statusa malik Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsində tətbiq olunan yeniliklərdən biri də yüklü nəqliyyat vasitələrinin buraxılışının təmin olunmasıdır. İran İslam Respublikasının Poldəşt gömrüyünün yenidən qurulması və iş prosesində elektron idarəetmə sisteminin tətbiqinə başlanılması imkan verir ki, muxtar respublikadan xarici ölkələrə və Azərbaycanın digər bölgələrinə gedən və əks istiqamətdə gələn yüklü nəqliyyat vasitələrinin buraxılışı həyata keçirilə bilsin. Bu isə, öz növbəsində, xarici ticarət əməliyyatları ilə bərabər Naxçıvanın tranzit potensialının artmasına da əlavə stimuldur.

Qeyd edək ki, 2007-ci ildə Araz çayı üzərində yeni Şahtaxtı-Poldəşt körpüsünün tikilib istifadəyə verilməsi, 2009-cu ildə Şahtaxtı Gömrük İdarəsi üçün müasir kompleksin qurulması, burada əlverişli iş şəraitinin yaradılması 185 ildən çox tarixi olan bu gömrük orqanının fəaliyyətinin artırılmasına və günün tələbləri səviyyəsində qurulmasına hesablanmış addımlar idi. Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında bütün sahələrdə qarşılıqlı münasibətlərin ilbəil möhkəmlənməsi fonunda gömrük əlaqələrinin də inkişafı onu deməyə əsas verir ki, gələcəkdə Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsi maksimum gücüylə fəaliyyət göstərəcəkdir.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 812